**"Dövlət qeydiyyatına alınmışdır"**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyində**

**"_08_" _avqust_ 2023-cü il**

**Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi:**

**İlqar Məmmədov**

**"Təsdiq edilmişdir"**

**Azərbaycan Respublikasının**
**Vəkillər Kollegiyası üzvlərinin**
**Konfransının 06.12.2022-ci il tarixli**
**qərarı ilə**

**Vəkillər Kollegiyasının səlahiyyətli şəxsi:**

**Anar Bağırov**

# Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının NİZAMNAMƏSİ (3-cü redaksiyada)

# AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASININ

# N İ Z A M N A M Ə S İ

Bu Nizamnamə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (bundan sonra - Vəkillər Kollegiyası) təşkili və fəaliyyətinin tənzimlənməsi məqsədi ilə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağı (Konfransı) tərəfindən qəbul edilmişdir.

## 1. Ümumi müddəalar

**1.1.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyası qeyri-dövlət, müstəqil, özünüidarəetmə, qeyri-kommersiya məqsədilə yaradılmış təşkilatdır. Vəkillər Kollegiyası Azərbaycan SSR-nin 13 noyabr 1980-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan SSR vəkilliyi haqqında Əsasnamə" ilə fəaliyyət göstərmiş Vəkillər Kollegiyasının hüquqi varisidir.

**1.2.** Vəkillər Kollegiyası bütün vəkillərin üzvlüyünə əsaslanan hüquqi şəxsdir, öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış etmək hüququna malikdir.

**1.3.** Vəkillər Kollegiyası qəbul etdiyi öhdəliklərə görə öz əmlakı ilə məsuliyyət daşıyır. Vəkillər Kollegiyası öz üzvlərinin qəbul etdiyi öhdəliklərə görə məsuliyyət daşımır. Vəkillər Kollegiyasının üzvləri Vəkillər Kollegiyasının öhdəliklərinə görə məsuliyyət daşımırlar.

**1.4.** Vəkillər Kollegiyası qanunla müəyyən edilmiş qaydada manatla və xarici valyuta ilə müvafiq banklarda bank hesabı aça bilər.

**1.5.** Vəkillər Kollegiyasının öz adı və Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri həkk olunmuş möhürü, ştampı və blankı vardır.

**1.6.** Vəkillər Kollegiyası müəyyən edilmiş qaydada elektron poçt xidmətindən və xüsusi internet saytından istifadə edə bilər.

**1.7.** Vəkillər Kollegiyası 09.12.2004-cü il tarixdə 1104-Q3-1648 nömrə ilə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

**1.8.** Vəkillər Kollegiyasının hüquqi ünvanı Bakı şəhəri, S.Vurğun küçəsi, 32-dir.

## 2. Vəkillər Kollegiyasının məqsədi

**2.1.** Vəkillər Kollegiyası Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, təhqiqat və ibtidai istintaqda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin yardımından istifadə etmək hüquqlarının təmin olunması və digər məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin həyata keçirilməsi, vəkillərin sosial və prosessual hüquqlarının müdafiə edilməsi məqsədi ilə təsis edilir.

Cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi, mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikasının Ali Məhkəməsində təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsidir.

**2.2.** Vəkillər Kollegiyasının əsas vəzifəsi hər bir şəxsin hüquq və azadlıqlarının, qanunla qorunan mənafelərinin müdafiə edilməsindən, onlara peşəkar, yüksək keyfiyyətli, vicdanlı hüquqi yardım göstərilməsini təmin etməkdən, vəkillik peşəsinin nüfuzunu yüksəltməkdən ibarətdir. Bu məqsədlə Vəkillər Kollegiyası:

- vətəndaş cəmiyyətinin maraqları naminə vəkillik institutunun inkişaf etdirilməsinə,

vəkilliyin müstəqilliyinin təmin edilməsinə çalışır;

- Vəkillər Kollegiyası üzvlərinin hüquq mədəniyyətinin artırılması, hüquqi maariflənmə işini təşkil edir;
- vəkillərin peşə hazırlığının artırılmasını təmin edir;
- vəkillik fəaliyyəti ilə bağlı elmi-metodik təhlil və ümumiləşdirmələr aparır;
- xarici təcrübənin öyrənilməsini təmin edir;
- əhaliyə hüquqi yardım göstərmək və vəkillərin müstəqilliyini təmin etmək məqsədi ilə dövlət hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 3. Vəkillər Kollegiyasının hüquq və vəzifələri

**3.1.** Vəkillər Kollegiyası aşağıdakı məsələləri həll edir:

- qanunvericiliyin tələblərinə uyğun olaraq Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir;
- öz üzvlərinin vəkillik fəaliyyətinə qanunla və bu nizamnamə ilə müəyyən olunmuş qaydada intizam nəzarətini həyata keçirir;
- hüquq-mühafizə orqanlarının və məhkəmələrin tələbi əsasında vəkillik fəaliyyəti ilə bağlı məsələlərə dair rəy verir;
- öz üzvlərinin hüquqlarını qoruyur;
- vəkillərə münasibətdə öz səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirir;
- dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar vəsaiti qanunvericiliklə nəzərdə tutulmuş qaydada vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə nağdsız qaydada ödəyir;
- qanunvericiliklə müəyyən edilmiş digər hüquq və vəzifələri həyata keçirir.

## 4. Vəkillər Kollegiyasının əmlakı və maliyyə mənbələri

**4.1.** Vəkillər Kollegiyasının fəaliyyətini təşkil etmək üçün onun mülkiyyətində binalar, tikinti və qurğular, mənzil fondu, inventar, milli və xarici valyuta ilə pul vəsaiti və qanunla müəyyən edilmiş qaydada əldə edilən digər əmlak növləri ola bilər.

**4.2.** Vəkillər Kollegiyası müvəqqəti və daimi istifadə üçün torpaq sahəsi, nəqliyyat vasitəsi əldə edə bilər.

**4.3.** Vəkillər Kollegiyasının fəaliyyətinin təmin edilməsi vəkillər tərəfindən ödənilən aylıq üzvlük haqqı hesabına maliyyələşdirilir. Vəkillik fəaliyyətinin qanunla müəyyən edilmiş qaydada dayandırıldığı dövrdə üzvlük haqqı ödənilmir.

**4.4.** Üzvlük haqqının miqdarı Ümumi yığıncaq (Konfrans) tərəfindən müəyyən edilir.

**4.5.** Vəkillər Kollegiyasının mülkiyyətində və istifadəsində olan bina və digər qeyri-yaşayış sahəsinin istifadəsinin təşkili Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən tənzimlənir.

**4.6.** Müdafiə edilən və ya təmsil edilən şəxslər qarşısındakı məsuliyyətə zəmanət vermək məqsədi ilə Vəkillər Kollegiyası tərəfindən vəkillərin sığorta bank hesabı yaradılır. Hər bir vəkil hər ay həmin hesaba aylıq gəlirinin 2 faizini keçirir. Hər hansı vəkil tərəfindən vurulmuş ziyanın ödənilməsi üçün onun vəsaiti kifayət etmədikdə, məhkəmə qərarına əsasən vəkillərin sığorta bank hesabı vəsaitindən istifadə edilir. Belə hallardа Vəkillər Kollegiyasının Rəyasət Heyəti Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sığorta bank hesabından ödənilmiş vəsaiti ziyan vurmuş vəkildən tələb etməlidir.

## 5. Vəkillər Kollegiyasında üzvlük, üzvlərin hüquq və vəzifələri

**5.1.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, bu nizamnaməyə uyğun olaraq vəkil statusunu əldə etmiş və Vəkillər Kollegiyasının

nizamnaməsinə uyğun fəaliyyət göstərmək arzusunda olan şəxs Vəkillər Kollegiyasının üzvü hesab olunur.

**5.2.** Vəkillər Kollegiyasına üzvlük könüllülük və peşəkarlığa əsaslanır. Üzvlüyə qəbul qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

**5.3.** Vəkilin şəxsi işi Vəkillər Kollegiyasının Rəyasət Heyətində saxlanılır.

**5.4.** Vəkil dövlət qulluğuna qəbul edildikdə onun vəkillik fəaliyyəti dövlət qulluğundan azad olunanadək dayandırılır.

Vəkilin yenidən fəaliyyətə başlaması dövlət qulluğundan azad edildikdən sonra 30 gün ərzində onun ərizə ilə Vəkillər Kollegiyasının Rəyasət Heyətinə müraciət etməsi əsasında Rəyasət Heyətinin qəbul etdiyi qərara uyğun olaraq həyata keçirilir.

**5.5.** Vəkillərin İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə vəkillik fəaliyyəti ilə məşğul olma üç aydan bir ilədək dayandırıla bilər. Rəyasət Heyətinin bu qərarından qərarın qəbul edilməsi ona məlum olduğu gündən bir ay müddətində məhkəməyə şikayət edilə bilər.

**5.6.** Vəkillər Kollegiyasından xaric edilməyə səbəb ola biləcək əsaslar olduqda, Vəkillərin İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti məsələnin həlli üçün məhkəməyə müraciət edərək həmin məsələ ilə bağlı məhkəmə qərarı qanuni qüvvəyə minənədək vəkilin fəaliyyətini dayandıra bilər.

**5.7.** Vəkillik fəaliyyətinə aşağıdakı hallarda xitam verilə bilər:
- öz arzusu ilə fəaliyyətinə xitam verilməsi barədə yazılı ərizəyə əsasən;
- barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittihamedici hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;
- Vəkillər Kollegiyasının üzvlüyündən xaric edildikdə;
- qanunla vəkilliyə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;
- üzvlük haqqını 6 aydan artıq müddətə üzrsüz səbəblərdən ödəmədikdə.

**5.8.** Vəkillərin fəaliyyətinə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə xitam verilir. Nizamnamənin 5.7-ci bəndinin altıncı və səkkizinci yarımbəndlərində nəzərdə tutulmuş hallarda vəkillərin fəaliyyətinə yalnız vəkilin Vəkillər Kollegiyasından xaric olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xitam verilir.

**5.9.** Vəkillər Kollegiyasının üzvləri peşə fəaliyyətlərini Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirirlər.

**5.10.** Vəkillər peşə borclarını həyata keçirərkən azad və müstəqildirlər, hər hansı təsir və təzyiqdən kənardırlar. Bu zaman onlara etibar edən şəxsin maraqlarına, qanuna və etik normalara uyğun olaraq hərəkət edirlər.

**5.11.** Vəkillər Kollegiyasının üzvləri aşağıdakı hüquqlara malikdirlər:
- Vəkillər Kollegiyasının idarəçiliyində iştirak etmək;
- Vəkillər Kollegiyasının seçkili orqanlarına qanunla və nizamnamə ilə müəyyən edilmiş qaydada seçmək və seçilmək;
- Vəkillər Kollegiyasının vəzifəli şəxslərindən Vəkillər Kollegiyasının fəaliyyəti ilə bağlı məlumat almaq;
- Vəkillər Kollegiyasının fəaliyyəti ilə bağlı təkliflər vermək.

**5.12.** Vəkillər peşə fəaliyyətini həyata keçirərkən qanunla və bu nizamnamə ilə müəyyən edilmiş digər hüquqlardan da istifadə edirlər.

**5.13.** Vəkillər Kollegiyasının üzvləri aşağıdakı vəzifələri daşıyırlar:
- vəkillik fəaliyyətini tənzimləyən qanunların və bu nizamnamənin tələblərinə əməl etmək;
- Ümumi yığıncağın (Konfransın) qərarlarını yerinə yetirmək;
- Rəyasət Heyətinin və digər seçkili orqanların qərarlarını icra etmək;

- qanunla vəkilə verilmiş hüquqlardan maksimum istifadə etməklə müdafiəçi vəzifəsini layiqincə yerinə yetirmək;
- vəkillərin davranış qaydalarına əməl etmək;
- məhkəmə iclaslarında xüsusi geyimdə iştirak etmək.

Vəkil peşə fəaliyyətini həyata keçirərkən qanunla və bu nizamnamə ilə nəzərdə tutulmuş digər vəzifələr də daşıyır.

## 6. Vəkillər Kollegiyasının strukturu və idarəçiliyi

**6.1.** Vəkillər Kollegiyasının strukturu və idarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsi "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunla və bu nizamnamə ilə müəyyən edilir.

**6.2.** Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağı (Konfransı) və Vəkillər Kollegiyasının Rəyasət Heyəti Vəkillər Kollegiyasının orqanlarıdır.

**6.3.** Vəkillər tərəfindən peşə vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair şikayətlərə və müraciətlərə baxılması və onların intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün Vəkillərin İntizam Komissiyası yaradılır.

**6.4.** Vəkilliyə namizədlərin qanunla nəzərdə tutulmuş tələblərə uyğunluğu və peşə hazırlığının müəyyən edilməsi üçün Vəkillərin İxtisas Komissiyası yaradılır.

**6.5.** Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkillik fəaliyyəti ilə bağlı elmi-məsləhət şurası, ayrı-ayrı komissiyalar, komitələr, Rəyasət Heyətinin aparatında struktur bölmələr və qanunla qadağan olunmayan digər qurumlar yaradıla bilər.

## 7. Vəkillər Kollegiyasının Ümumi yığıncağı (Konfransı)

**7.1.** Vəkillər Kollegiyasının Nizamnaməsini, Vəkillərin İxtisas və İntizam Komissiyalarının əsasnamələrini və vəkillərin davranış qaydaları haqqında əsasnaməni qəbul etmək, onlara əlavə və dəyişikliklər etmək, Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, İntizam Komissiyasının sədrini, sədr müavinini və üzvlərini seçmək, vəkilliyin rəsmi emblemini və vəkillərin xüsusi geyim formasının təsvirini təsdiq etmək, Vəkillər Kollegiyasının büdcəsini və üzvlük haqqının həcmini müəyyən etmək Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağının (Konfransının) müstəsna səlahiyyətidir.

**7.2.** Vəkillər Kollegiyası üzvlərinin sayı beş yüzdən çox olarsa, Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağının səlahiyyətləri Vəkillər Kollegiyası üzvlərinin Konfransı tərəfindən həyata keçirilə bilər.

**7.3.** Vəkillər Kollegiyasının Ümumi yığıncağı (Konfransı) üç ildə bir dəfədən az olmayaraq Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən çağırılır. Zərurət olduqda isə Vəkillər Kollegiyasının növbədənkənar Ümumi yığıncağı (Konfransı) iki ildə bir dəfədən çox olmamaq şərti ilə Vəkillər Kollegiyası üzvlərinin üçdə birinin tələbi əsasında çağırıla bilər.

**7.4.** Vəkillər Kollegiyasının Konfransı təmsilçilik normaları əsasında və bu nizamnamənin 7.1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətlər daxilində keçirilir.

**7.5.** Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağı (Konfransı) Kollegiya üzvlərinin (nümayəndələrin) üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

**7.6.** Ümumi yığıncağın (Konfransın) qərarları o halda qəbul edilmiş hesab olunur ki, Ümumi yığıncaqda (Konfransda) iştirak edən üzvlərin (nümayəndələrin) 50%-dən çoxu qərarın lehinə səs vermiş olsun.

**7.7.** Ümumi yığıncağın (Konfransın) qərarları protokol tərtib etməklə rəsmiləşdirilir, iclasın sədri və katibi tərəfindən imzalanmaqla təsdiqlənir.

## 8. Vəkillər Kollegiyasının Rəyasət Heyəti

**8.1.** Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri, sədr müavinləri və digər üzvləri

Vəkillər Kollegiyasının Ümumi yığıncağında (Konfransında) 5 il müddətinə seçilir. Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri və sədr müavinləri eyni zamanda müvafiq olaraq Vəkillər Kollegiyasının sədri və onun müavinləri hesab olunurlar. Heç kəs iki dəfədən artıq təkrarən Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri seçilə bilməz.

**8.2.** Vəkillər Kollegiyasının Rəyasət Heyəti:

- Ümumi yığıncağı (Konfransı) çağırır, 2 ay ərzində onun keçirilməsini təşkil edir və qərarlarının icrasını təmin edir;
- Konfransın çağrılması üçün nümayəndəlik normasını müəyyən edir;
- Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir, qanunla nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı səlahiyyətlərini həyata keçirir;
- dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarını tərtib edir və onları müvəqqəti saxlanma yerlərinə təqdim edir;
- öz səlahiyyətləri daxilində Vəkillərin İxtisas Komissiyasının üzvlərini təyin edir;
- ixtisas imtahanlarının qaydalarını və imtahanların keçirilməsinin dövriliyini (ildə bir dəfədən az olmayaraq) müəyyən edir;
- vəkillik fəaliyyətinin həyata keçirilməsi məsələlərinə dair metodik tövsiyələr hazırlayır;
- qanunvericilikdə müəyyən edilmiş qaydada vəkillər haqqında intizam tənbehi tətbiq edir, intizam tənbehini dəyişdirir və ya ləğv edir, intizam tənbehinin dəyişdirilməsi və ya ləğv edilməsi ilə əlaqədar zərurət yarandıqda, məsələyə baxılması üçün Vəkillərin İntizam Komissiyasına göndərir;
- vəkillərin reyestrini aparır;
- vəkillər arasında qanunvericilik, məhkəmə təcrübəsi və hüquq sahəsində maarifçilik işini təşkil edir;
- Rəyasət Heyəti aparatının strukturunu, ştat cədvəlini, xərclər smetasını və işçilərin əmək haqqını təsdiq edir;
- Vəkillər tərəfindən üzvlük haqqının ödənilməsinə nəzarət edir;
- Vəkillər Kollegiyasına daxil olan vəsaitin xərclənməsi qaydasını müəyyən edir;
- Vəkillik qurumlarının təşkil edilməsində qanunvericiliyin tələblərinə əməl edilməsi üçün tədbirlər görür;
- Ümumi yığıncağa (Konfransa) hesabat verir;
- qanunvericiliklə başqa hal nəzərdə tutulmadıqda, orderin formasını və istifadəsi qaydasını müəyyən edir;
- "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda və bu nizamnamədə nəzərdə tutulmuş digər məsələləri həll edir.

**8.3.** Rəyasət Heyətinin iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Rəyasət Heyətinin qərarları sadə səs çoxluğu ilə qəbul olunur. Rəyasət Heyətinin qərarları protokol tərtib edilməklə rəsmiləşdirilir, Rəyasət Heyətinin sədri və iclasın katibi tərəfindən imzalanmaqla təsdiq edilir. Rəyasət Heyətinin qərarları tanışlıq üçün açıqdır, Vəkillər Kollegiyasının üzvləri heç bir maneə olmadan onunla tanış ola bilərlər. Zəruri hallarda Rəyasət Heyətinin qərarları tanışlıq üçün Vəkillər Kollegiyasının üzvlərinə göndərilir.

**8.4.** Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri:

- Vəkillər Kollegiyasını təmsil edir;
- Rəyasət Heyətinin və aparatın işini təşkil edir və onlara rəhbərliyi həyata keçirir;
- qanunda nəzərdə tutulmuş hallarda və qaydada Rəyasət Heyətinin iclasında baxılması üçün məsələləri hazırlayır və təqdim edir;
- Ümumi yığıncağa (Konfransa) sədrlik edir;
- Rəyasət Heyətinin iclaslarına sədrlik edir;
- kargüzarlıq işinin aparılmasını təmin edir;
- Ümumi yığıncağın (Konfransın), Rəyasət Heyətinin qərarlarının və digər sənədlərinin saxlanılmasını təmin edir;
- Rəyasət Heyətinin aparatının işçilərini işə qəbul və işdən azad edir, onlar tərəfindən əmək və icra intizamına əməl olunmasına nəzarət edir;

- Ümumi yığıncaqda (Konfransda) hesabat məruzəsi ilə çıxış edir;
- statistika hesabatının təhlilini təşkil edir;
- vətəndaşlan qəbul edir, onların qəbulu, ərizə və şikayətlərinə baxılması sahəsində Rəyasət Heyətinin işini təşkil edir;
- təsdiq edilmiş smeta daxilində maliyyə vəsaitləri üzərində sərəncam verir;
- bu nizamnaməyə zidd olmayan məsələlərə dair müqavilələr bağlayır və digər hüquqi hərəkətləri edir.

8.5. Rəyasət Heyətinin sədri üzrlü səbəblərə görə sədr vəzifəsini müvəqqəti olaraq icra edə bilmədikdə, öz əmri ilə sədr vəzifəsinin icrasını sədr müavinlərindən birinə həvalə edir. Sədr üzrlü səbəblərə görə vəzifəsini icra edə bilmədikdə və vəzifəsinin icrasını həvalə etmədikdə, bu məsələ Rəyasət Heyətinin qərarı ilə həll edilir.

8.6. Rəyasət Heyətinin sədri qanunla və bu nizamnamə ilə ona verilmiş digər hüquq və vəzifələri daşıyır.

8.7. Rəyasət Heyətinin üzvləri aşağıdakı hüquq və vəzifələri daşıyırlar:
- Rəyasət Heyətinin iclaslarında iştirak etmək;
- Rəyasət Heyətinin iclaslarında müzakirə edilmək üçün təkliflər vermək;
- Vəkillər Kollegiyasının fəaliyyəti ilə bağlı hər hansı sənədlə tanış olmaq, məlumat almaq;
- məsələlərə dair öz rəyini şifahi və ya yazılı formada bildirmək;
- qanunla və ya bu nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

## 9. Vəkil qurumları

9.1. Vəkillik fəaliyyəti fərdi və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hüquqi şəxs statusunda təşkil olunmuş qurumların (hüquq məsləhətxanaları, vəkil büroları, vəkil firmaları və s.) tərkibində həyata keçirilə bilər. Vəkillik fəaliyyətinin təşkilati-hüquqi forması vəkillər tərəfindən könüllü olaraq seçilir.

Vəkil qurumlarının yerləşdiyi yer və ərazi Vəkillər Kollegiyasının Rəyasət Heyətinin tövsiyələrinə uyğun həyata keçirilir.

9.2. Vəkil qurumu vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan vəkil (vəkillər) tərəfindən yaradılmış, bu qurumda fəaliyyət göstərən vəkillə hüquqi yardım göstərilən şəxs arasında müqavilə münasibətlərini əlaqələndirən hüquqi şəxsdir. Vəkil qurumu qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. Bu qurumun təsisçiləri (üzvləri) yalnız vəkillər ola bilər.

9.3. Vəkil qurumlarının təşkili və fəaliyyəti bu nizamnamənin tələblərinə uyğun olaraq tərtib edilmiş nizamnaməyə əsasən həyata keçirilir və bu qurumların fəaliyyəti vəkillik fəaliyyəti ilə məhdudlaşır. Vəkil qurumlarının nizamnaməsi Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olmalıdır.

9.4. Vəkil qurumuna həmin qurumun təsisçiləri tərəfindən seçilmiş vəkil rəhbərlik edir.

9.5. Vəkil qurumlarının təsisçiləri öz aralarında bu qurumun təsis edilməsi və qurumun fəaliyyət şərtləri barədə müqavilə bağlayırlar.

9.6. Vəkil qurumları vəkillik fəaliyyəti ilə bağlı Vəkillər Kollegiyasına Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi qaydaya və formaya uyğun olaraq ümumiləşdirilmiş statistik hesabat verirlər.

## 10. Vəkil qurumunun rəhbəri

Vəkil qurumunun rəhbəri:
- qurumun işini təşkil edir;
- hüquqi yardım göstərilməsi ilə bağlı vətəndaşlarla, hüquqi şəxslərlə, dövlət orqanları ilə müqavilə bağlayır;
- vəkillər tərəfindən müqavilə şərtlərinin yerinə yetirilməsinə nəzarət edir;
- vəkilə onun heyata keçirdiyi hüquqi yardımla bağlı fəaliyyətini təmin etmək üçün order

verir;

- vəkillərin mükafatlandırılması haqqında Vəkillər Kollegiyasının Rəyasət Heyəti qarşısında məsələ qaldırır;
- qanunvericilik sahəsində maarifçilik işinin aparılmasını təşkil edir;
- işçilərin, o cümlədən, vəkilin təqdimatı əsasında vəkil köməkçisinin işə götürülməsi ilə əlaqədar əmək müqaviləsi bağlayır;
- qanunla müəyyən edilmiş digər hüquq və vəzifələri daşıyır.

## 11. Fərdi qaydada vəkilliklə məşğul olma

**11.1.** Vəkil öz arzusuna uyğun olaraq vəkillik fəaliyyətini fərdi qaydada da (fərdi vəkil kimi) həyata keçirə bilər. Fərdi qaydada fəaliyyət göstərən vəkil Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının tam adı, özünün adı və soyadı həkk olunmuş dairəvi möhürə və müvafiq bank hesablarına malik olur.

**11.2.** Fərdi vəkillərin hüquqi yardım göstərdikləri fiziki və hüquqi şəxslərlə münasibətləri *onlar arasında müvafiq qaydada bağlanmış müqavilə ilə tənzimlənir.*

**11.3.** Fərdi qaydada fəaliyyət göstərən vəkillər Vəkillər Kollegiyası Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş vahid forma əsasında hazırlanmış orderdən istifadə edirlər.

**11.4.** Fərdi qaydada fəaliyyət göstərən vəkillər həyata keçirdikləri vəkillik fəaliyyəti ilə bağlı Vəkillər Kollegiyasına Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi qaydaya və formaya uyğun olaraq ümumiləşdirilmiş statistik hesabat verirlər.

**11.5.** Fərdi qaydada fəaliyyət göstərən vəkillər dövlət vergi orqanlarında uçota alınırlar.

## 12. Vəkil köməkçiləri və inzibati-texniki işçilər

**12.1.** Hər bir vəkilin qanunla müəyyən edilmiş qaydada (əmək müqaviləsi əsasında) fəaliyyət göstərən köməkçisi, fərdi qaydada fəaliyyət göstərən vəkillərin və vəkil qurumlarının inzibati-texniki işçiləri ola bilər.

**12.2.** Vəkilin köməkçisi vəkillik fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış vəkil qurumları ilə, bu fəaliyyət fərdi qaydada həyata keçirildikdə isə vəkillə Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi formada və qaydada bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir. Vəkil köməkçisinin əmək haqqı həmin müqaviləni bağlamış vəkil qurumunun və ya vəkilin hesabına verilir.

**12.3.** Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkil köməkçiləri ilə yaranan əmək münasibətlərinə dair metodik tövsiyələr verə bilər.

**12.4.** Vəkil köməkçisinin qanunla müəyyən edilmiş hüquq və vəzifələri vardır.

## 13. Vəkillər Kollegiyası üzvlərinin mükafatlandırılması

**13.1.** Vəkillər peşə borclarının nümunəvi yerinə yetirilməsinə, uzun müddət qüsursuz və səmərəli fəaliyyətinə görə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə təltif edilirlər.

Təltif növlərinə aşağıdakılar aiddir:
- təşəkkür elan etmək;
- qiymətli hədiyyə ilə mükafatlandırmaq;
- "Fəxri Fərman"la mükafatlandırmaq;
- "Fəxri hüquq doktoru" adı ilə təltif etmək;
- "Vəkillər Kollegiyasının Fəxri vəkili" adı ilə təltif etmək.

**13.2.** Vəkilliklə bağlı nailiyyətlərə görə vəkillər barəsində digər mükafatlandırma tədbirləri də nəzərdə tutula bilər. Eyni zamanda, vəkilliyin ictimai həyatında fəal iştirak edən digər şəxslər də təltif edilə bilərlər.

## 14. Vəkillərin intizam məsuliyyəti

**14.1.** Peşə borcunu həyata keçirərkən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının tələblərinin, o cümlədən vəkillərin davranış qaydaları haqqında əsasnamənin, vəkil etikası normalarının pozulması halları aşkar edildikdə, vəkil intizam məsuliyyətinə cəlb olunur.

**14.2.** Vəkil yalnız Vəkillərin İntizam Komissiyasının rəyinə əsasən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda nəzərdə tutulmuş qaydada Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən intizam məsuliyyətinə cəlb edilir.

## 15. Digər şərtlər

**15.1.** Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir. Zərurət olduqda, Vəkillər Kollegiyası üzvlərinin Ümumi yığıncağı (Konfransı), Rəyasət Heyətinin, İntizam və İxtisas komissiyalarının iclasları onlayn qaydada keçirilə bilər.

**15.2.** Gələcəkdə bu nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

**15.3.** Vəkillər Kollegiyasının maliyyə ili 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi • Ədliyyə sahəsində xidmətlər baş idarəsi •

DƏFTƏRXANA